**MİRZƏ MƏHƏMMƏD KATİB**

# Ş E R L Ə R

**B A K I – 2004**

**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

**MƏHƏMMƏD FÜZULİ adına ƏLYAZMALAR İNSTİTUTU**

**MİRZƏ MƏHƏMMƏD KATİB**

# Ş E R L Ə R

**Bakı – «Şuşa» nəşriyyatı – 2004**



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

**AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu elmi şurasının 25 fevral 2004-cü il tarixli 2 № -li iclasının qərarı ilə nəşr edilir.**

**Çapa hazırlayan: Samirə Gəncəli**

**Elmi redaktoru: Paşa Kərimov,**
**filologiya elmləri namizədi**

**Redaktoru: Vasif Quliyev,**
**filologiya elmləri namizədi**

**Kompüter icraçıları: İradə İsayeva,**
**Suad Əhmədov**



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

## MİRZƏ MƏHƏMMƏD KATİB

XIX əsrdə Şuşa şəhərində yaşayıb-yaratmış şairlərdən biri də Mirzə Məhəmməd Katibdir. Onun haqqında yaxın zamanlarda geniş oxucu kütləsinə ilk məlumatı AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun mərhum əməkdaşı, filologiya elmləri namizədi Nəsrəddin Qarayev 1987-cı ildə ‘‘Yazıçı’’ nəşriyyatında çapdan çıxan “Poetik məclislər” kitabında vermişdir. Həmin məlumata görə, 1833-cü ildə Şuşada anadan olan Mirzə Məhəmməd Məşədi Bayram oğlu Katib təhsilini də burada almış, Şuşada fəaliyyət göstərən “Məclisi-fəramuşan”ın üzvü olmuşdur. N.Qarayev şairin Mirzə Fətəli Axundovla dost olduğunu, onunla məktublaşdığını da bildirir.

M.M.Katibin bir neçə şerini özünün təzkirəsində çap etdirən Mir Möhsün Nəvvabın (1833-1918) dediyinə görə, şair Şuşanın Çuxur məhəlləsindən olub, onun qəsidə, qəzəl, müxəmməs, mürəbbe, müstəzad və həcvlərinin ümumi həcmi təxminən iki min beytdir. Şairin həm də gözəl xəttat kimi tanındığını, əksər vaxtlar yanında olduğunu söyləyən M.M.Nəvvab onun sadəlövh bir adam olması barədə belə yazır: “Hər nə desəydilər, inanardı. Çox vaxt gülmək üçün bəzi zarafatçıl şəxslər başqa adamların dilindən ona yalan çatdırardılar ki, filankəs Sizə belə demədi, elə dedi. Həmin gün və ya o günün axşamı o biçarə günahsıza həcv yazardı”. Özünün “Riyazül-aşiqin” təzkirəsində M.M.Katibin bir neçə şerini verən Məhəmməd ağa Müctəhidzadə (1875-1956) onun hicri tarixlə 1306-cı ildə (1888) vəfat etdiyini göstərir.

Görkəmli ədəbiyyatşünas alim Salman Mümtaz “Ədəbiyyat qəzeti”nin 1935-ci il 12 aprel tarixli nömrəsində çap etdirdiyi “Mirzə Fətəli Səbuhi və Mirzə Məhəmməd Katib” məqaləsində Katib haqqında bir sıra məlumatlar vermiş, Mir Möhsün Nəvvabın onun haqqında dediyi bəzi fikirləri təkzib etmişdir. Mirzə Məhəmmədi “Mirzə Fətəlinin öz əqidəsi yolunda çalışmağa cəlb etdiyi və beləliklə yetişməsinə səbəb olduğu simalardan biri” hesab edən S.Mümtaz bildirir ki, 25 il öncə bir neçə mənbədən, xüsusilə də şairin Katiboğlu adı ilə tanınan böyük oğlu Zülfüqardan əldə etdiyi məlumata görə, “Katib əqilli-başlı, əqidəli və tərəqqipərvər bir şair imiş”. Mirzə Məhəmmədin bir neçə şerini, o cümlədən M.F.Axundova yazdığı iki qoşmasını “Ədəbiyyat qəzeti”ndə çap etdirən Salman Mümtaza görə, Katib “Nəvvabın göstərdiyi kimi, sadəlövh və hər bir şeyə inanan bir şəxs



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

olsa idi, heç bir zaman Mirzə Fətəli kimi böyük mütəfəkkirimizin nəzər-diqqətini cəlb edə bilməzdi". Məqaləni Katibin ölümündən 50 il keçməsi münasibəti ilə yazdığını bildirən S.Mümtaz şairin M.F.Axundova ünvanladığı bir qoşmasını misal gətirərək yazır: "Yuxarıdakı qoşmadan ap-açıq görünür ki, Mirzə Fətəli ilə Katibin arasında bir dostluq və xüsusiyyət var imiş".

Bunun üzərinə Mirzə Fətəlinin Katibi Tiflisdə qurulacaq "Məclisi-xasə" dəvət etməsi və ondan "xəyalat" istəməsi də əlavə edilsə, məsələ tamamilə aydınlaşar.

Şairin ədəbi irsi barədə müəyyən təsəvvür əldə edə bildiyimizə görə biz onun əsərlərini köçürmüş görkəmli ziyalılarımız Əlabbas Müznib və Salman Mümtaza borcluyuq. Hər iki ədibin əlyazmaları hazırda AMEA-nın Əlyazmalar İnstitutunda saxlanılır. Ə.Müznibin topladığı daha geniş şerlər Fr-995 şifrəsi altında mühafizə edilir. Burada Müznib şair haqqında əldə edə bildiyi məlumatları da vermişdir. Şairin Şuşada fəaliyyət göstərən "Məclisi-üns" ədəbi məclisinin üzvü olduğunu göstərən Müznib onu digər müasirləri Abdulla bəy Asi, Məhəmmədəli bəy Məxfi, Ağa Həsən, Mirzə Ələsgər Növrəslə müqayisə edir. Müznibə görə, öz müasirlərindən daha soyuqqanlı olduğu üçün Katib onların mübahisələrinə, məsələn, Natəvana yazılan həcvə və bu həcvə verilən cavablara qarşı etinasız olmuşdur.

Mirzə Məhəmməd Katibin müasir oxuculara ilk dəfə təqdim olunan şerləri Əlabbas Müznibin və Salman Mümtazın topladığı əlyazmalardan götürülmüşdür.

Paşa Kərimov,<br>filologiya elmləri namizədi

## XIX ƏSRİN ŞAİRLƏRİNDƏN MİRZƏ MƏHƏMMƏD KATİB

On doqquzuncu əsrin ikinci yarısındakı şairlərdən biri də Mirzə Məhəmməd Katibdir. Zamanın görkəmli şairlərindən olmuşdur, yoxsul bir ailəyə mənsubdur. Atası Məşədi Bayraməli kimi, özü də yoxsulluqla keçinmişdir. Xurşidbanu Natəvanla müasir olub, "Məclisi-üns"ün üzvlərindəndir. Abdulla bəy Asi, Məhəmmədəli bəy Məxfi, Ağa Həsən, Mirzə Ələsgər Növrəs kimi diri və coşqun şairlərlə bir yerdə, bir məclislərdə yaşamışsa da, bitəb, soyuqqanlı olduğu üçün onların qarışdığı bir çox işlərə qarışmamışdır.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Misal üçün, Natəvanın yaxın adamı və ən sevdiyi bir şair olsa da, yenə onun üstündə qopan həcv gurultusuna qayət etinasız baxmışdır. Fəqət qayət dindar olmuşdur. Şəriətin caiz görmədiyi hər yüngül bir şeyə böyük bir diqqətlə baxdığı kimi, həyati-ictimaiyyəyə və əsrin iqtiza etdiyi yaşayışa da xor baxmışdır. Qayət sadəlövh olmuş və sufiyanə yaşamışdır. Qəzəllərinin, mürəbbelərinin hər yerində eşq, eşqi-şərab, mey-məzə, xalü-xət, qaş-gözdən dəm vurub məczub bir eşqli kimi aşiqanə şerlər yazan Katib bütün ömrünü huri, cənnət, məscid və mənbər sevdasilə keçirmiş, daima onların şərafətindən şəfaət diləmişdir. Buna da yaşadığı mühit səbəb olmuşdur. Qarabağ müsəlman bağçılarının ermənilərlə şərik şərab qayıranlar haqqında yazdığı uzun bir həcvi şahiddir. Bununla bərabər, qəşəng şerlər yazmışdır. Nəhayət, 1306-da (1888-1889) Şuşada vəfat etmişdir. Buraya toplanılan qəzəllər və mürəbbelər onun asari-mətrukəsindəndir.

*Ə.Müznib*

## UNUDULMUŞ YARPAQLAR

### MİRZƏ FƏTƏLİ SƏBUHİ VƏ MİRZƏ MƏHƏMMƏD KATİB

Mirzə Fətəlinin öz əqidəsi yolunda çalışmağa cəlb etdiyi və beləliklə yetişməsinə səbəb olduğu simaların biri də yuxarıda adını qeyd etdiyimiz M.M.Katibdir. Allahqulu oğlullarından Məşədi Bayramın oğludur. Kitabətlə, kitab yüzü ağartmaqla məşğul olduğu üçün təxəllüsünü "Katib" qoymuşdur. Katib Mirzə Fətəli, Qasım bəy Zakir və sairə ilə həm əsr imiş ki, o şairənin biri də şairin öz həmişə hərisi Mir Möhsün Nəvvabdır. Mir Möhsün təzkirəsində Katibdən bəhs edərkən onun şənin alçaltmış, onun haqqında da olduqca mənasız məlumat vermişdir.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Mir Möhsün yazır:

“Mirzə Məhəmməd Katib mənim yanıma çox gələrdi. Özü də sadəlövh və hər sözə inanan bir kişi idi. Sənəti şairlik olub, hər cürə şerlər söylərdi. İki min beytdən ibarət bir məcmuəsi vardı” (“Təzkireyi-Nəvvab; s. 86-87). Amma bizim 25 il bundan qabaq Katib haqqında topladığımız məlumat, Mir Möhsünün verdiyi məlumatın tamamilə ziddinədir. Bizə məlumat verənlərin cərgəsində Katibin böyük oğlu olan Zülfüqar da vardır ki, bu gün belə sağ və Katib oğlu adı ilə məşhurdur. Bizdə olan məlumata görə, Katib, əqilli-başlı, əqidəli və tərəqqipərvər bir şair imiş. Fəvqəladə kasıb olması, yaşadığı mühitin yaramazlığı, meydanda tək qalması, onun qol-budaq atmasına imkan verməmişdir. Katib, Nəvvabın göstərdiyi kimi, sadəlövh və hər bir sözə inan bir şəxs olsa idi, heç bir zaman Mirzə Fətəli kimi böyük mütəfəkkirimizin nəzər diqqətini cəlb edə bilməzdi. Katibin haqqında toplaya bildiyimiz məlumat və onun bizdə olan əsərləri, xüsusilə Mirzə Fətəliyə yazmış olduğu iki qoşması yuxarıda dediklərimizin doğruluğuna mötəbər sənəddir. Bu sənədlər bizim sözümüzü tamamilə təsdiq edir.

Mirzə Fətəliyə xitabən Katib yazır:

Ey sərvərim, əhvalımı soruşsan,
Gecə-gündüz işim ahü zardır,
Könlüm qana döndü bu zəmanədə,
Ol səbəbdən belə biqərardır.

Dərdü qəmdən qəddim yayə dönübdür,
Rəngim sarı kəhrəbayə dönübdür.
Vücudim bir müqəvvayə dönübdür,
Görən deyər: “surəti-divardır”.

Oxşatmışdın məni əhli-xəvasə,
Tiflisdə çağırdın məclisi-xasə,
Xəyalat istədin məndən xülasə,
Cənabın əşarə xiridardır.

Təsnif eyləmişdim bir yaxşı kitab,
Havanın barişi etdi inqilab,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bir seylabə düşdüm, oldu misli-ab,
Yoxsa ki, iqrarım o iqrardır.

Genə yazdım qafiyədən, qəzəldən,
Billəm meylin həcvə çoxdur əzəldən,
Boylə həcvü hədyanı düzəldən,
Yəqin bil, hamıdan nabekardır.

Şair güzərandan fariğbal gərək,
Həmişə xoşdamaq, xoşəhval gərək,
Bəd keçməyə ona mahü sal gərək,
Bigüzəran şair olan xardır.

Şairlərin piri-süxəndanısan,
Ariflərin sərvəri sultanısan,
Aşiqlərin dərdinin dərmanısan,
Eşq sözü səndən aşikardır.

Sənin kimi hanı mədəni-kamal,
Bir süxənvər, məclisara, əhli-hal,
Ey danayi-xirədməndi xoşməqal,
Məclisinə düşən kamkardır.

Yazdığın hekayət hikmətdir tamam,
Olur ki, eşidə tərk edə əvam,
Xəlayiqə ola misli-iltizam,
Hər nə desən xəlqə, səzavardır.

Çoxdan qalıb bizim millət geridə,
Qor gərəkdir qəlp gümüşü əridə,
Gərçi yoxdur əridən zərgəri də,
Millətimiz məxluqi-biardır.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bu yerdə arifi bir para qanmaz,
Məzəmmət etməkdən bircə usanmaz,
Kamalını görən məgər utanmaz,
Sakit olmaz, onda nə azardır.

Dünya yoldaşıdır hər millət mənə,
Yaxşı yoldaş əhli-kamaldır yenə,
Ariflərə irad tutan kimsənə,
Mərifətdən necə bərxudardır?!

Arif ki, qabili-izzü cah ola,
Təriqəsi səvab, ya günah ola,
Kişinin ki, şövqü padşah ola,
Bu işlərdə sahibixtiyardır.

Taci-sərim, salma nəzərdən məni,
Arifliyi bəndə səndən öyrəni,
Ölməyibən bir də görsəydim səni!
Çünki gözüm həsrəti-didardır.

Məxdümzadə, eşitdim, etmiş səfər,
O səfərdə olsun onu müzəffər,

Könül sayəsindən neçə əl çəkər?
Çünki kamalına ümidvardır.

Nəxli-şirin verməz acı səməri,
Hər şey öz əslindən əsər göstəri,
Arif kəsin olu arif pesəri,
Yəqin elə, bu söz əslkardır.

Gərək bundan belə, ey kani-kərəm,
Hər söz olsa yazıb sizə göndərəm,
Axundovlar cümləsinə çakərəm



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Mənzurumuz nə söz, nə əşardır.

İstəsəniz birin xeyrə yetirmək,
Hər fəqiri topraqidən götürmək,
Ya birinin ismü rəsmin itirmək,
Sizin əlinizdə nə düşvardır?

Bir iş olsa gəlləm can üzə-üzə,
Olmasa da genə müxlisəm sizə,
Kitabətin yetişməyin yaz bizə,
Yazmasan müxlisin intizardır.

Arif bu yerlərdə gərək düşməyə,
Əhli-hal yox, ona bir dərdin deyə,
Tarı bilir sizin kimi kimsəyə,
Katib bir bəndeyi-cannisardır.

Yuxarıdakı qoşmadan ap-açıq görünür ki, Mirzə Fətəli ilə Katibin arasında bir dostluq və xüsusiyyət var imiş.

Bunun üzərinə Mirzə Fətəlinin Katibi Tiflisdə qurulacaq “Məclisi-xasə” dəvət etməsi və ondan “xəyalat” istəməsi də əlavə edilsə məsələ tamamilə aydınlaşar.

Katib Mirzə Fətəliyə vəd etmiş kitabı göndərə bilməmişsə də, onun əvəzinə bir neçə qafiyə, qəzəl, həcv yazıb göndərmişdir. Katibin vədə xilaf çıxmasına mühüm bir hadisə bais olmuşdur. Belə ki, Katib bir tufanlı gündə Kürdən keçdikdə xurcunu suya düşərək axmış və təsnif etdiyi kitabda bu hadisədə tələf olmuşdur. Mir Möhsün Nəvvab bu hadisəni bilmədiyindəndir ki, təzkirəsində yanlış məlumat vermişdir. Onun iki min beytlik bir məcmuəsi vardır, – deməsi bu kitaba işarədir.

Katib Mirzə Fətəlinin komediyalarını bəyənir və onları “Hekayət” adlandırır. Onlarda yazılmış sözlərin başdan-başa hikmətdən ibarət olduğunu etiraf edir ki, bu da onun açıq fikirli, heç olmazsa o zamanlarda İstanbulda İran səfiri olaraq Mirzə Fətəlinin əleyhinə çalışan Mirzə Hüseyn xandan yüz qat yüksək bir adam olduğuna dəlildir.

Katib mütəəssib, həm də qara fikirli olmadığını göstərir.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

O, qoşmanın axırlarında bundan sonra deyəcəyi şerlərdən Mirzə Fətəliyə göndərəcəyini və bütün Axundovlara müxlis və çakər olduğunu da yenə ayrıca olaraq qeyd edir.

Katibin vəfatından əlli il keçir. Onun vəfatı hicri 1306 vaqe olmuşdur. Bizim bu sətrləri qaraladığımız da bu münasibətlərdir. Katib erməni və rus dillərində bir dərəcəyə qədər bilirmiş, o, dillərdə yazdığı parçalar da vardır.

*Salman Mümtaz*

## ŞERLƏR

Eşqin saldı məni dərdü bəlayə
Qəsd eylədi şirin canə, sevdigim.
Qan dəryası cuşə gəlib gözümdən
Ahim yetər asimanə sevdigim.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Qadiri ləmyəzəl olsun pənahın
Candan eylər məni o şux nigahın.
Həlqeyi-zülfündə xali siyahın
Olub mürği dilə danə sevdigim.

Sinəmə kipriyin xəncəri kari
Rəhm eylə, incitmə aşiqi zari
Qara bəxt eyləmə bu dilfkari
Vurma siyah zülfə şanə sevdigim.

Sənsiz istəmərəm dövləti, malı
Dövlət odur görüm o, gül cəmalı.
Ətri-zülfün aldı əqlü xəyalı
Saldı məni biyabanə sevdigim.

Aşiq oldum sənin kimi əyarə
Bimürvətə, biiqrarə, xunxarə.
Dəxi di gəl eylə, Katibə çarə
Çox gətirdin imtahanə sevdigim.

* * *

Badi-səba, mənim ərzi halımı,
O, vəfalı yarə dedin, nə dedi?
Eşq sevdasında dərdi-sərimi
Gözləri xumarə dedin, nə dedi?

Çoxlar siyah zülfün sərgərdanıdır
Pərişan zülfünün pərişanıdır.
Könül o zəncirin bəndə vanıdır
Uyubdur şahmarə dedin, nə dedi?

Aşiqlərin bikamali deyiləm
Sirri-dəhanından hali deyiləm.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Xalın görüb dərddən xali deyiləm
Dərdimizə çarə dedin, nə dedi?

Bir ah çəkim yansın baği-zəmana
Rəqiblərin rəngi dönsün xəzana,
O şux tərlana, ruhi-rəvana
Uymasın əğyarə, dedim, nə dedi?

Mənim getməz ürəyimin qubarı
Onun həmsöhbəti kim oldu yarı.
Bir yada salmadı Katibi-zarı
Saldı ahu zarə dedim, nə dedi?

* * *

Sevgilim, mən sənin bəndəvanınam
Sən gəzirsən naməhrəmlər içində
Gözəl idin, gözəl adın var idi
Bədnam oldun möhtərəmlər içində.

Dost yanında yaxşı sözüm ötmədi
Səri-zülfün şövqi sərdən getmədi
Ömrüm keçdi əlim yarə yetmədi
Can üzüldü dərdü qəmlər içində.

Gözəllikdə sənə olmaz qərinə
Qoymaq olar səni huri yerinə
Sənsiz əgər girsəm xüldi-bərinə
Guya qallam cəhənnəmlər içində.

Qaşın kimi olmaz çərxin hilali
Əydi məni əyri zülfün xəyali

Əlif qəddim qəbul eylədi dali



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Məşhur oldum qəddi xəmlər içində.

Sənan kimi ollam aşiqi-rüsva
Əğyarı bəyəndi zalimi-tərsa
Katibəm, neyləyim, katibi-qəza
Yazdı məni bəxti kəmlər içində.

## Ala gözlərin

Səhər-səhər durub qıya baxanada
Düşgünüyəm mən o, ala gözlərin.
Badə nə lazımdı sevdiyim mənə
Məst eyləyib o, piyalə gözlərin.

Qəmzəyi-cəlladın nə xunxar imiş
Canım alan, telli, sitəmkar imiş
Bu zalimdə nə fitnələr var imiş
Salar məni haldan-hala gözlərin.

Sən gözəlsən, bədirlənmiş ay kimi
Mən aşiqəm, göz yaşım var çay kimi
Əyilmişəm qaşın kimi, yay kimi
Qəddimi döndərib dala gözlərin.

Zülfün aldı bu şikəstə könlümü
Eylədi tarına bəstə, könlümü
Mən istəməm dəxi xəstə könlümü
İndi nə var məndə ala gözlərin.

Hər zaman çəkərəm yüz min ahu zar
Nə rəhmin var canan, nə mürüvvətin var
Katib olub hicrində zarü fikar
Rəvadırmı, gözdən sala gözlərin



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

* * *

Sevdiyim məndən üz döndərmisən
Nə demişəm qəlbin mükəddər olsun
Şöleyi-ahimdən köşki sarayin
Oda yansın mənə bərabər olsun.

Gecə-gündüz sənsən fikrim, xəyalım
Nə olur bəzmində səndən kam alım
İnsafın yox, mürvətin yox a zalım
Səbr eləmək məndə nə qədər olsun.

Aşiq deyil camalına uymayan
Nədən doyar, didarından doymayan
Sevdiyim qapına məni qoymayan
Görüm mənim kimi dərbədər olsun.

Qurban olum dilinə, dodağına
Baş əgərəm qaşlarının tağına
Hansı gecə baxsam tər buxağına
İstəmərəm o gecə səhər olsun

Katibəm uymuşam bir bivəfaya
Ömrümü vermişəm badi-fənaya
Görən bu dünyada mən binəvaya
Kim qarqadı yarın sitəmkər olsun.

* * *

Badi-səba məndən o gülüzara
Belə nalə eylə güllər ağlasın
Eşq düşgünüyəm mən bəxtiqara
Eşqə düşən aylar, illər ağlasın.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Badi-səba, dərdim oldu ziyada
Kimim var yetişə bu gündə dada
Məcnun kimi verdim ömrümü bada
Mənim əhvalimə çöllər ağlasın.

Dərdim bu ki, o dildari sevəli
Müxtəsər, dərdindən olmuşam dəli
Əlim yetməz, xəyalim gedər, gəli
Bari bir ah çəkim yollar ağlasın.

İnanıb deyəsən rəqibin sözünə
Öz dostunu düşmən bilib özünə
Mən ki, bir baxmadım xumar gözünə
Gərək bu gözlərim sellər ağlasın.

Əcəl gəlib kəsər axırı səsi
Katibin könlündə qalıb həvəsi
Qəriblərin nə kimsəsi, nə kəsi
Qərib olanlara ellər ağlasın.

* * *

Xumar-xumar hər tərəfə baxanda
Bais olur nahaq qana gözlərin
Qəmzəyi-bədməstə aşiq olmuşam
Rəxnə salırdın imana gözlərin.

Rüxsarında olan nöqteyi-xalın
Bir nöqtədir, onsuz olmaz camalın
Nə xəta eylədi, xəta maralın
Saldı belə biyabana gözlərin.

Ləşkər kimi kirpiklərin cabəca



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Səf çəkib, qətliмə durub mühəyya
Özün cəllad, qaşların kafirasa
Rəhm eyləməz, müsəlmana gözlərin.

Yaramadım yarımdan, yoldaşımdan,
Qərqə verərəm, səni bu göz yaşımdan
Əzəl aldın ağlı, huşu başımdan
İndi qəsd eyləyib cana gözlərin.

Katibin əhvalı yasa dönübdür
Kirpiklərin bir almasa dönübdür
Qaşın gözə iltimasa dönübdür
Rəhm eyləməz natəvana gözlərin.

* * *

Hicran xəstəsiyəm, canım üzüldü
Bu günümdə canan gəlməz, gəlməsin.
Mənki, qan ağlaram saatbasaat
Çəkərəm əlaman, gəlməz, gəlməsin.

Xarab olsun bu gərdişi-zamana
Ömrümün gülşəni döndü xəzana
Həsrət qaldım zülfi-ənbərəfşana
Olmaz pərişan, gəlməz, gəlməsin.

Ah çəkməkdən bağrım başı söküldü
Çeşmim yaşı dəryalara töküldü.
Yollara baxmaqdan qəddim büküldü
O qaşları kaman, gəlməz, gəlməsin.

Fələk atdı məni qəm diyarına
Nə deyim namərdin etibarına



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Sözə baxıb, əqyar olan öz yarına
Yadlara mehriban, gəlməz, gəlməsin.

Katibəm, yar məni saldı nəzərdən
Bir namə yazaram xuni-ciyərdən
Göndərrəm kuyinə badi-səhərdən
Eyləyər ərmağan, gəlməz, gəlməsin.

* * *

Zülfi-kəcəbru düşübdür mahi-taban üstünə.
Yaki kafir tiğ çəkmiş əhli-iman üstünə

Könlümü yıxmış sərasər ləşkəri-möhnət hənuz.
Gündə yüz kəz üz qoyar bir böylə viran üstünə

Cismi-zarım əşk seylabında sərgərdan gəzər
Çün xəsü xaşak düşmüş bəhri-ümman üstünə.

Aşiqi bülbül kimi əfqana mötad eylədin
Üzdə xalın zağ tək düşmüş gülüstan üstünə.

Vədəyi-vəsl eyləmiş dilbər peşiman olmaya
Müstəhəqqəm, nola İsa gəlsə, peyman üstünə

Hər tərəfdən zülm qıldın ey fələk, yetər bəla
Bunca yağdırdın bu Katib tək pərişan üstünə.

* * *

Mahdır bu, ya mələk, ya huri-zibadır nədir,
Pərtövi-hüsni günəş tək aləmaradır, nədir.

Zülfdür, ya aşiqi-divanəyə zəncirdir



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Şövqdür bu, ya mənim başımda sevdadır, nədir.

Nöqteyi-mövhumdur, ya çeşmeyi-abi-həyat,
Ya dəhəndir mimvəş, ya sirri-ixfadır nədir.

Qəmzədir, ya fitnədir, ya can alan cəlladdır,
Yaki üşşaq əhlinin qətlinə imadır, nədir.

Bu necə göz yaşıdır, qərq eyləyibdir aləmi,
Gül üzündən ayrı cuş etmiş, bu dəryadır, nədir.

Dindirib lütfiylə eşq əhlini ehya eyləmiş,
Bu nə xoş məhbubdur, sani Məsihadır, nədir.

Şövqi-zülfin ey pəri, aləmdə rüsva eylədi,
Katibi hər kim görər, der kim, bu şeydadır, nədir?

* * *

Heç aşiq-naümidi-vəsli-canan olmasın
Aşiqə dünyada canan olmasa, can olmasın.

Eyləmiş əzmi-şikar ol şahbazi-izzü naz
Könlümü seyd etməyə, yarəb, peşiman olmasın.

Bivəfa, əğyara vəsl etdin, dəxi bundan belə
Ləli-nabın həsrətindən bağrımız qan olmasın.

Çıxma, ovca zülfünü göstərmə iman əhlinə
Görmə bu küfri rəva əsla müsəlman olmasın.

Göz yaşım seylaba döndü, yıxdı xanimanımı
Olsa hər mənzildə su, olmazki viran olmasın.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Kim ki, təhrik eylədi, saldın nəzərdən Katibi,
Namurad olsun görüm, dərdinə dərman olmasın.

* * *

Heç aşiq maili-zülfü zənəxdan olmasın
Dəhrdə divaneyi-zənciri-zindan olmasın.

Mən çəkən möhnətləri aləmdə kafir çəkməsin
Küfr zülfün görməsin, halı pərişan olmasın.

Gün qabağında, amandı, əzmi-cövlan eyləmə
Sayə tək zülfün yenə xak ilə yeksan olmasın.

Badə vermə zülfüni, hər ləhzə lərzan eyləmə
Mənzili-şami-qəriban, onda viran olmasın.

Şanə vurma zülfünə, dünyanı zülmat eyləmə
Katibin sevdasın artırma, pərişan olmasın.

* * *

Piçi-xəm şivəsi çün türreyi-tərrarə düşüb,
Qeydi-möhnət o səbəbdən bu dili-zarə düşüb.

Məni məzur tut, ey vaizi-pakizənihad
Qismətim ruzi-əzəldən bütü zinnarə düşüb.

Künci-ruyində o əfiləri ol dəm ki, görüb
Xovfdən bu dili-sevdazədə sədparə düşüb.

Dilbəra, bu dili-sədparə mənə qismət olub
Qəmzeyi-tir-kaman nərgisi-bimara düşüb.

Qan axar didələrimdən, canım odlara yanar,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Ol zamandan ki, nəzər arizi-gülnara düşüb.

Məskən etmiş üzünü, xali-siyə hindu tək
Bəxtəvərdir ki,qəzadan belə gülnara düşüb.

Кatiba, əhli-vəfa boynuna bir silsilədir
O siyəh zülf kim, ol səfheyi-rüxsara düşüb.

* * *

Bad dəysin zülfünə bir ləhzə lərzan eyləsin,
Ətr salsın aləmə qoy müşki-ərzan eyləsin.

Mən dedim məşşatəyə sərgəştəyi-zülf olmuşam,
Şanə vurdu könlümü, yəqin pərişan eyləsin.

Qaşın üstə xali-tirəndaz hindular kimi,
Yayə girmiş göz görə, istər ki, bir qan eyləsin.

Qaşların yayından ötrü qəddimi xəm qılmışam,
Tiri-ahim az qalıbdır, çərxi-viran eləsin.

Mümkün olmaz surətin şəkli xəyalımdan çıxa,
Göz qabağında durubdur, aşiq əfqan eyləsin.

Ruzigarım keçdi səhrada, məni tərsabeçə
Qəsdi var dünyada, misli Şeyx Sənan eyləsin.

Yazmışam bir namə yarə, iltimasım vəsldir,
Кatibi-zarəm, əlaci-dərdi-hicran eyləsin.

**Şirvanda olduğu zaman zaqatalalı bir Məsihizadə haqqında yazmışdı**



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Pərişan eyləmə badi-səba, zülfi-pərişanı
Könül cəmiyyətin pozma, çıxar əflakə əfqanı.

Həqiqət mən əğyari gördüm, yar kuyində
Dedim, zağü zəğən tutmuş, yenə səhni-gülüstanı.

Bu dağıstanlı tərsa çəkdi, yüz min dağı, dağ üstə
Mənim sinəm alışmaz, barı yandırmaz kəlisanı.

Məsihizadənin məxmur çeşmi qəsdican eylər.
Gərək ahın tuta göylərdə, damani-Məsihanı.

Sənə tərsalı qismi layiq olmaz bu lətafətdə
Neçün tarac qılmaz, məst çeşmin kafərstanı.

Bəyazdır ruyunda, xətti-mişkin sətirlənmiş
Sanasan məddi-bismillahdır əbruyi-pişanı.

Bu yerdə şir tək aşiqləri seyd etmək adətdir
İlahi, biimarət görüm olsun, şəhri-Şirvanı.

Gözün əhli-xətadır, türreyi-zünnarə həsbəndəm
Məzəmmət etmərəm eşq aləmində Şeyx Sənanı.

Sən oldun baiş-qürbət vilayət aşiqi-zarə
Vəgərnə Katibin bu yerdə yox, əylənmək imkanı.

* * *

Zülfünə göz dikmişəm, dünya gözümə tardır,
Bu qara gündə, işim hər ləhzə ahu zardır.

Rəhm yoxdur səndə, bu qıldan asılmış könlümə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bu ilan çalmış o zülfün kimi tarümardır.

Ömrüm olunca, yetərsən dost ancaq sən mənə,
Gərçi bəxtimdən həmişə düşmənim, bisyardır.

Pərdəli sözdən nə hasil, bir açıq danış görüm,
Dərdimə dərman eylə, qorx, ahım atəşbardır.

Mərdi-mərdanə gərəkdir istəyəni, istəmək,
Səg rəqibdən, qorxmayan kəs aqilü huşyardır.

Çox zamandır dərdimi könlümdə pünhan eylədim
Ürəyim şişdi həqiqət məsləhət izhardır.

Bir nəvaziş eyləsən xəlvətdə, eyni-lütfdür
Katibəm, ərz eylərəm hər qədr dərdim vardır.

* * *

Bavər etmə məhvəşin kim, göydə mehri-ənvardır,
Çəkdiyim hər dəm o, şölə ahi-atəşbardır.

Səngidil məşuqəyə göz yaşı təsir etmədi,
Rəsmdir su düşə, təsir eyləmək düşvardır.

Şövqi-zülfün qəddimi xəm qıldı, ey əbru kəman,
Sən tərəhhüm eylə barı, çərx kəcrəftardır.

Mən duaguyam səri-kuyində, xaki-pay olam,
Yox mənim bir qeyr fikrim, ta həyatım vardır.

Müflis olsam, yüz, mənə dövlət yüzü, yüz verməyə,
Qəm deyil, məqsud, ancaq dövlət didardır.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Nərgisi-bimarə nisbət eyləyiblər çeşmini,
Can alır, cəlladvəş, bilməm necə bimardır.

Canə qəsd eylərsə çeşmin, əl-əmanət incimə,
Katiba, sındırma qəlbin çünki ol biyardır.

*   *   *

Tiri-müjganını at, sineyi-suzanə dəyə,
Belə at, özgə yerə dəyməyə, bu canə dəyə.

Səri-zülfündə könül, sirri-dəhanın sorsa,
Gəzə zulmatı gərək, çeşmeyi-heyvanə dəyə.

Həbsə sal, Yusifi, bu çahi-zənəxdanında,
Düşə təşvişə Züleyxa, gələ zindana dəyə.

Aç niqabın, güli-cənnət kimi güllər solmaz,
Ətri-zülfün bu bahar fəsli gülüstanə dəyə.

Xaki-payinə düşüb dərdi-dili-bimarı,
Deyərəm gərçi sözüm, sən kimi cananə dəyə.

Ki, bu divanə könül mənzili billəm dağılır,
Hər zaman zülfü pərişanə pəri şanə dəyə.

Katibin görsə o gülnar üzün, baxmazmı
Necə ki, şamı görə yanmağa pərvanə dəyə.

*   *   *

Ey mələk mənzər, könül zülfü pərişanındadır,
Bəndivanın öylə bil, canım sənin yanındadır.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Vəsli-ruyin ləzzəti cənnətdən artıqdır mənə,
Nari-duzəx zəhməti əyyami-hicranındadır.

Şövqi-zülfün gərdənimdə gərçi bir zəncirdir,
Şöleyi-ahım olub, zəncirə damanındadır.

Leyli fəxr eylər ki, bir Məcnunu saldım çöllərə,
Yox sənin fəxrin ki, yüz Məcnun biyabanındadır.

Bu gözəllikdə sənə bir nəqs tapsam naqisəm,
Olsa hər nəqsin, həqiqət əhdü peymanındadır.

Vaizi-divanə söylər bir qiyamət şiddətin,
Yüz qiyamət şiddəti sərvi-xuramanındadır.

Gərçi cadulər işi məkrü fəsadü cəngdir,
Hər fəsadü fitnə olsa, çeşmi-məstanındadır.

Dilbərin ayineyi-hüsnündə olmaz bir kədər,
Sufi bulsa bir kədər, əlbəttə imanındadır.

Surətin eşqindən oldum, surəti-divar tək,
Katibin bu surət ilə eşq fərmanındadır.

* * *

Divanə könül zülfşikən pürşikən içrə
Zəncirə düşüb qaldı pərişan vətən içrə.

Titrər səri zülfündə könül badi-səbadan
Harut kimi düşməyə çahi-zəğən içrə.

Gəzdim çəməni qaməti-rənayə müqabil
Bir sərvi-səhi olmadı səhni-çəmən içrə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Ey tazə cavan bəzmdə düşməzmi ayağə,
Düşsə bu üzün əksi şərabi-kühən içrə

Ölləm, sənə ərzim buki, ey sərvəri-xuban
Eşqin gedəcək qəbrə mənimlə bədən içrə

Aç qəbrimi gör, şövqi-səri-zülfi-müənbər,
Əfiyə dönər ölü cismim kəfən içrə

Ahi-səhərim, çaki-giribanın üçündür,
Surətin ki, görünə Katibə, güli-pirəhən içrə.

Yüz əfsun oxusan şahmar zülfün heç ram olmaz,
Məni ta çalmasa, bu könlümün şövqü tamam olmaz.

Mənə tən etməyin, zülfü pərişandan, pərişanam,
Xəyalat eyləsəm, şerimdə tərtibü nizam olmaz.

Həqiqət mənzilinə yetmədim, ömrüm tamam oldu,
Bətalətdə keçirtdim, bilmədim ömrüm müdam olmaz.

Gözəllər surətinə baxmağı vaiz haram etmiş,
Gözəl görmək savab işdir, həqiqətdə haram olmaz.

Səri-kuyin havası çıxmadı sərdən yəqinimdir,
Məni-divanəyə sən tək pəri kuyi məqam olmaz.

Bəyazi-dövri-ruyində yazıblar, xətti-mişkini,
Bu məzmun ilədir kim, aşiqi-nakama kam olmaz.

Hər işdə Katibi məzur tut, bir rindi-şeydadır,
O, bir bədnam olan aşiqdir, onda nəngü nam olmaz.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

*   *   *

Fələk, xarab olasan, könlümü xarab etdin,
Ədalət eyləmədin, zülmi-bihesab etdin.

Həmişə bülbülü güldən ayırmaq istərsən,
Mənim bu ayrılığımda, çox iztirab etdin.

Hicab əgərçi günəş surətə, nə lazımdır,
Bu dudi-ahımı ol məhvəşə, hicab etdin.

Cəhənnəm atəşinə oxşamaz fəraqın odu,
Məni bu atəşə saldın, yenə kabab etdin.

Səadətə yetiribsən rəqibi dünyada
Zəlalətə salıb, eşq əhlinə əzab etdin.

Səbəb nədir buna, hər yerdə mərdi incitdin,
Nə rəsmdir sənə, namərdi kamiyab etdin.

Əgərçi dəhrdə var, aşiqi-pərişanhal,
Əzəldə Katibi, pəjmürdə intixab etdin.

*   *   *

Mürği-dil qəflət edə, çahi-zənəxdanə düşə,
Kim yetər dadına, biçarə o zindanə düşə.

Xalə üz vermə o hindubeççə qarətgər olur
Nə rəvadır belə küstax, gülüstanə düşə.

Gözlərin göz görə, hər ləhzədə yüz qan eylər,
Bu həramini görüm, axiri bir qanə düşə.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bu cahanda özünü şaha bərabər tutmaz,
Hər fəqirin nəzəri, sən kimi cananə düşə.

Sən də bil qədrini zalım, bu lətafət vaxtı,
Hər dənizadəyə bel bağlama, dəstanə düşə.

Söylə nə heyib ola, bu mərd idi, namərd oldu,
Sən kimi pak, nə hacət belə böhtanə düşə.

Qorx o gündən, gedə bu hüsni-məlahət, nə ki, var,
Bədri-kamil kimi, surət dönə nöqsana düşə.

Xətt çıxa gün üzünə, əbrsifət hayil ola,
Ləşkəri-küfr gələ, səfheyi-imanə düşə.

Gedə peykarına Katibki sənə aşiqdir,
Bütpərəst olmaya, bir dini-müsəlmana düşə.

* * *

Qaranqu gecələr zülfün xəyalilə digərgünəm,
Nə deyim gül qönçəsi tək, ləblərindən ayrı dilxunəm.

Qan ağlar gözlərim, çün arizi-gülguni göstərdin
Tökülmüş üstümə qan, ondan ötrü rəxti-gülgunəm.

Əgərçi ölməyə razı deyil, bir kimsə dünyada,
Dəyə bir tiri qəmzən sinəmə, ölsəmdə məmnunəm.

Zəkati-hüsn düşməz mən kimi eşq əhlinə əsla,
Ki, fikr gənci-ruyimdə həmişə misli-Qarunəm,

Çəkibdir qalibim surətgər tərkibi-mai-tin,
Bu badi-ahi sərdim yanmışam odlara, məhzunəm.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Keçibdir növbət Fərhadü Şirin yarə, həsbəndəm,
Onun bir adı var, şöhrətdə ondan mən ki, əfzunəm.

Məzəmmət etməyin, bir Leyliveş dildarə pabəndəm,
Ki, zənciri-səri-zülfündən ötrü bəski, Məcnunəm.

O gün ki, görmüşəm növrətsə, sərvi-qədi-mövzunu,
Bu dürr qədi-mövzunu tökər, göz təbi-mövzunəm.

Əgər bir rəg ilən olsa Katibin qanı gedən vaxta,
Görərsən rəngi-buyindən sənin mehrinlə məşhunəm.

* * *

Mürği-dil aşiq olub qaməti-rənayə baxar,
Qumriyi-sərv kimi sərvi-dilarayə baxar.

Məni zünnarpərəst etdi xəta gözüm
Bəli Sənan ulu hər kim ki, o tərsaya baxar.

Dəyişib halını o zülfi-müənbər nə deyim,
Nə bu əhvala, nə başımdakı sevdaya baxar.

Aşiqin görsə səni, taqəti-didar olmaz,
Necə tab eyləyə, bir nuri-təcəllaya baxar.

Yar otağında barı surəti-divar olasan,
Xoş onun halına kim, surəti-zibaya baxar,

Duzəxə, cənnətə getməkliyi vaiz bilməz,
Sözünə baxma, hər iş həşrdə mövlaya baxar.

Nə yazım, şer, yenə Katib, bimar oldum,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Kim xəyal içrə gözüm, nərgizi-şəhlaya baxar.

* * *

Qaşın tərhini çəkmək fikri hər nəqqaşa ram olmaz,
İki aydır kəşakeşdir, hələ tərrahı tamam olmaz.

Nə xoşdur ləşkəri-müjgan düzəlmişdir nizam ilə,
Qarışmış bir-birə xətti-ləşkəri, onda nizam olmaz.

Gözəllər sərvəri əhli-kəmalə, iltifat eylə,
Bu dövran belə qalmaz, bu gözəllik də müdam olmaz.

Haramdır, qana dönmüş badeyi-bəzmindən ayaq çəkdim,
Ləbi-nabınla dəvi eyləyən necə haram olmaz.

Üz vurdum kubeyi-ruyə, baş əydim taği-əbruyə,
Məni mən eyləmə vaiz, belə ziba olmaz.

Nə ol məhvəşdə rəhm olmaz, nə mehri sinədən çıxar.
Nə hicrani tükənməz, nə də aşiq şadkam olmaz.

Sənə qeyrət çəkər Katib, amandı baxma, əğyar,
Demə rüsvayi-eşq olmuş, onunçün nəngü nam olmaz.

* * *

Vücudun olmasa, heç olmasın bahar, ey dost,
Üzündən ayrı nədir, seyri-taləzar, ey dost.

Məqami-eşqdə tut, bir əyağilə əlini
Məni ayağə salıbdır, bu ruzigar, ey dost.

Bu şuri-eşqdə dövri-müxalif gərdun,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Nə edəcək mənə, zülfün ola hasar, ey dost.

Görüm bu dəm səni, təhriki-zülm edən kimsə,
Mənim kimi çəkə hər ləhzə, ahüzar, ey dost.

Əgər qubari-xətt ayineyi-cəmalə düşə,
Bu şişeyi-dilizarə düşər, qubar, ey dost.

O tari-zülfə aman, vurma şanə, tanrıya bax,
Ki, könlüm olur, o tar içrə, tarümar, ey dost.

Bu qəddü qamət ilə bağa gir, xüram ilə,
Ki, payibəndin ola, sərvi-cuybar, ey dost.

Məni çevir başına, öldürüb xilas eylə,
Bu həsrət ilə yenə qoyma intizar, ey dost.

Şəbi-fəraqda Katib nə qədər ah çəkər,
Haçana tək ola bu çeşm əşkbar, ey dost.

* * *

Sənə mümkün deyil gülşəndə, bülbül, xarə yalvarmaq,
Mənə olmaz rəva əsla gedib əğyarə yalvarmaq.

Nə müşküldür şəbi firqətdə qalmaq, eyləmək əfğan
Töküb qan yaş dəmadəm, sabitü səyyarə yalvarmaq.

Görər pərvanə şəmin, yanmaq istər aşiqi-sabit,
Nə hacət eşqdə, sən arizi-gülnarə yalvarmaq.

Əgər huşyarsan, məxmur çeşmə baxma, ey bidil,
Neçün bimar olmaq, nərgisi-bimara yalvarmaq?



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Əbəs, hər nakəsə can vermə, demə iltifat eylər,
Nə mürüvvətdir sərasər, bimürüvvət yarə yalvarmaq.

Könül, eşq içrə düşmə, çıxma yoldan Şeyx Sənan tək,
Nə lazım, meyli-tərsa eyləyib, zünnarə yalvarmaq.

Yetişmək mətləbə istərsən, ey Katibi-miskin,
Gərək ixlas ilə ol Heydəri kərrarə yalvarmaq.

* * *

Gün səni görmək ilə çərxdə avarə düşüb,
Sərbirihnə o səbəbdən, dərü divarə düşüb,

Yerdən ol şuxi görüb, çərxdə baxdım qəmərə,
Deyəsən, parələnib məh, yerə bir parə düşüb.

* * *

Cahan bağında qəddin sərvərim, bir sərvi-rənadır,
Həqiqət bir qiyamətdir ki, bu dünyada bərpadır.

Yaratdı xaliqül əşya, nə xoş bir şuxi-bipərva,
Edər üşşaqi ehya, aləm içrə bu Məsihadır.

Tərəhhüm etməyib, yüz föhş vermiş, leyk mən şadam,
Bəli bicarə eşq əhlinə, ol həm lütfi-üzmadır.

O qəddin bir əlifdir, canım içrə ehtiyatım var,
Və ya kim, atəşi-eşq içrə türfə nəxli-tubadır.

Nidim, bu əşki-dərya, qərq edibdir aləmi vaiz,
Məlahət bəhrinə ol şuxi-ziba dürri-yekdadır.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Əgər əğyar kamın yardan kim alsa, tən etmə,
Könül adət budur, aşiq sərasər, xarü rüsvadır.

Könül sevməmiş səni, Vamiq kimi Məcnuni-dövranam,
Sənə həm ta məlahətdə nə Leyli və Üzradır.

Dəmadəm canü dildən vəsfini yazmaq dilər, amma,
Görüb məxmur çeşmin, aşiqin mədhuşü rüsvadır.

Gözün hər ləhzə əmr eylər, xədəngi-zülfi-pürçinə,
Ki, çəksinlər dili-divanəni darə, tamaşadır.

Könül şəhrini viran eylədin, ey şuxi-bipərva,
Hərami mənzili çeşmin, qaşın bir tiği-bürradır.

Sənə xunxarlıq məşhur bundan oldu aləmdə,
Ki, hər qəmzən oxu, bir aşiqin qətlinə imadır.

Dəhanın nöqtədir, ya mimdir, ya qönçə gülşəndə,
Onun sirri bilinməz, mütləqa müşkül müəmmadır.

Sən ol mahi-məlahətsən ki, səndən qeyri yox, guya,
Sənin dövründə xubani-cahan əqdi-sürəyyadır.

Səri-zülfi siyəhkarında rəhm et, əhli-üşşaqə,
Tutub mənzil könül bir kur sərasər, şuru qovğadır.
Məlamət tərkin et, üşşaq tutmaz pəndini vaiz,
Səri-kuyun unutmaz bir zaman, zira ki, məvadır.

Siyəh zülfin düşübdür, gün üzündə nuru zülmətdir,
Əcəb möcüznümasan, mehri-ənisi şami-yəldadır.

Əgər qəmzən xədəngin imtahan etməkdir, ey sərxoş,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Mənim sinəmdə meylim varsa, xublara yağmadır.

Əzizim, dami-zülfündən şikayət eyləməz aşiq,
Əgər min fitnə çıxsa, hadisi caduyi-şəhladır.

Məgər Məcnun hədisin bilməmişdin, Katibi-miskin,
Ki, sevdin Leyliveş dildarı, mənzil dağü səhradır.

**Erməni ilə şərik olub şərab qayıran qarabağlıların haqqında**

Bərhəm ola bu çərxi-dünpərvəri,
Müdam əhli-həqqə cəfa göstəri,
Kamrəva eyləyə hər kafəri,
Şəhid edə küənəndeyi-Xeybəri,
Nə mürvətdir, incidə peyğəmbəri.

Bağatlarda olan müsəlmana bax,
Tamam oğru, tabeyi-şeytanə bax,
Münafiqə, münkiri-quranə bax,
Fasiqü məluni-biimanə bax,
Şəriətin hökmünə yox bavəri.

Oğrular ki, həramə mötad olur,
Yüz ev tikə, axırı bərbad olur.
Şəbi-cümə ruhlər azad olur.
Halal bişən evə gələn şad olur,
Haram bişən yerdən üzün döndəri.

Əhmədavar Fərəc, Vəli dünyada,
Çaxır basdı bu iki haramzada,
Badə üçün dini verdilər bada,
Baxın belə vilayəti-bərbada,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Unudublar Bağat əhli məhşəri.

Dedilər ki, gəlin bir yoldaş kimi
Tapaq çaxır, basaq qızıl baş kimi,
Ermənidən tutaq bir hamaş kimi,
Şərik olaq çaxıra qardaş kimi,
Mundan qeyri işin yoxdu səməri.

Anton adlı ermənini gördülər,
Bağlarını yarılığa verdilər,
Bir gün gəlib çərövişə girdilər,
Tuluqlarda çaxırı az gördülər,
Qəbul etmədilər belə zərəri.

Yava oğlu Fərəc götürdü yava,
Zərər qəbul etmədi, saldı dava,
Ermənini istədi döyüb qova,
Yalqız özü çaxırı satıb-sova,
Sovda-sulu gərək olsa müştəri.

“Ay erməni, məgər candan keçmisən?
Yoxsa müsəlmanı axmaq seçmisən?
Payın yoxdu, sən payını içmisən,
Nəfin qaçırdıb içinə…
Qalan çaxır mənimdi, ey sərsəri.

Ey səfih erməni, incitmə məni,
Boğazına sallam bu siyirtməni.
And olsun birbətə: öldürrəm səni,
Dərələrdə cəngəl yeyən erməni,
Müftə çaxır görüb, verib içəri”.

Erməni dedi ki, canım, ay Vəli,
Bu yoldaşın içməmiş oldu dəli.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Vermə muna, içər olu cəzvəli,
Al çaxır payını, salma əngəli,
Bir neçə istəkan tulla içəri.

“Ey müsəlman, qəsəm be rəbbi-ğəfur,
Nə didəəm misli-to laən-şüur,
Hər zaman ki, şəvəd qiyamət zühur,
Nə mirəsəd bər to şərabə təhur,
Benuş əz in meyi-tazə sağəri”.

“Ey müsəlman, and olsun mərhəmətli Allaha,
Sənin kimi şüursuz adam görməmişəm,
Ta qiyamət olan vaxtadək
Təmiz şərab sənə çatmayacaq,
Bu təzə şərabdan bir az iç!”

“Ax tı, durak, ya ne budu vinovat,
Ya tebe pokaju…
Mirovoy sud tebe budet nakazat,
Ya ne poydu, xoçu zdes noçevat,
Naprostnıy talkovıy vina beri”.

“Bidqa kinem sudin qışdin ərz unim,
Hinç asma a şan dığa yer qunim,
Şad xosimes nihur bet quret kunim,
Atorq du gudumçe yes andunim,
İs saat qan çumim kema derderi”.

Keşiş gəli, özün sənə yetiri,
Məndən vəkil olub, işi bitiri,
Dilavərdi, axırını itiri,
Çaxır basdım mən ki, sizdən ötəri.
Nə verdiniz mənə bu dərdi-səri?!



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Çaxır davasına tutun meyxana,
Katib deyə, yaza mərdü mərdana,
İbrət ola şəriətdən çıxana,

Bu fisqlər məşhur ola hər yana,
Bu həcviyyat ola dillər əzbəri.

* * *

Atəşi-hicrin mənə gərçi hərarət verir,
Eşq salır yadıma vəslini, taqət verir.

Arizin, ey dilrüba, laləni dilgir edir,
Daireyi-çərxdə şəmsə xəcalət verir.

Zalım! Əyilmiş qaşın, çeşmini təhrik edir,
Aşiqi-biçarənin qətlinə rüxsət verir.

Xəndeyi-pünhani-yar, könlüm açar aşikar,
Gül rüximə ərzi-hal etməyə cürət verir.

Bu necə mehrabdır, yaki qaşın tağıdır,
Vaiz özü baş əyər, xalqa nəsihət verir.

Xali-siyahə nə üz vermisən ol bəxtəvər,
Yoxsa Həbəş əhlidir, gülşənə zinət verir.

Nəzmi-Nişatü Məsih, şeri-Zülali məgər,
Katib oxur sərbəsər, ruhuma ləzzət verir.

* * *

Bahar fəsli bağ seyrinə çıxanda
Sərvi xuramanə verməyəm səni.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bülbülüm mən sənin gül cəmalına
Qönçeyi-xəndanə verməhəm, səni.

Bazari-hüsnündə durmusan yenə
Girə-girə zülfün düşüb gərdənə
Müştərindi yüz min Əziz kimsənə
Yusifi-Kənanə verməhəm səni.

Təneyi-əğyarə qail olmuşam
Eşqə düşüb əqli zail olmuşam.
Gülşəni-hüsnünə mayil olmuşam
Rövzeyi-rizvanə verməhəm səni.

Xumar gözlərinin olmaz misalı
Baş əgər qaşına çərxin hilalı
Kim görübdür belə cahü cəlalı
Yüz min Süleymanə verməhəm səni.

Katibi incitmə naməhrəm degil
Səndən uzaqlaşsa bir adəm degil
Səri-kuyin firdövsdən kəm degil
Hurü qılmanə verməhəm səni.

* * *

Sevdiyim yar məndən üz döndərmisən
Nə demişəm qəlbin mükəddər olsun.
Şöleyi-ahimdən köşkü sarayın
Oda yansın mənə bərabər olsun.

Gecə-gündüz sənsən fikrim, xəyalım,
Nə olur, bir məndə səndən kam alım.
İnsafın yox, mürüvvətin yox, a zalım,
Səbr eyləmək məndə nə qədər olsun.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Aşiq degil cəmalına uymayan
Nədən doyar, didarından doymayan.
Sevdigim, qapına məni qoymayan,
Görüm mənim kimi dərbədər olsun.

Qurban olum söhbətinə, sözünə
İncimə sən bir söz deyim özünə.
Hansı gecə baxsa gözüm, gözünə
İstəmənəm dan atsın, ya səhər olsun.

Katibəm, uymuşam bir bivəfayə
Ömrümi vermişəm badi-fənayə.
Görən bu dünyadə, mən binəvayə
Kim qarğadı yarın sitəmgər olsun.

* * *

Ey bivəfa sənin kimi gözələ
Həqiqətdə cövrü cəfa yaraşmaz.
Sevgi sevgisinə vəfa göstərər
Məgər sizin nəslə vəfa yaraşmaz.

A tanrı zalimi bir bax tarıyə
Dərdmənd ol dərdi qoyum arayə.
Bir busə vermədin məni-biçarəyə
Yəqin cənabına səxa yaraşmaz.

Sərvi-qamətinə ər-ər oxşamaz,
Zülf siyahinə ənbər oxşamaz
Sineyi-safinə mərmər oxşamaz
Gərdəninə desəm mina yaraşmaz.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Leyli Məcnuninə mehriban idi
Gəlüb səhralarda yarın tanıdı
Sənin gözün zalim xəta kanıdı
Xəta ahusinə xəta yaraşmaz.

Zülfi-siyahını bəstədim Katibə
Kəmənd ola bu şikəstə Katibə
İltifatın olsun xəstə Katibə
Olma beylə kəmehtina yaraşmaz.

* * *

Olmaz sənin kimi gözəl kimsənə
Xoş yaraşır zülfin bəyaz gərdənə
Əldən saldı məni dərdü qəm yenə
O nazik əlini könlüm arzular.

Ağzın bir qönçədir sirri bilinməz
O noqtəyi məvhum iki bölünməz
Bir tüldür ərz qismət olunmaz
O incə belini könlüm arzular.

Bülbüli-şeydayəm gül cəmalına
Hər zaman gülüni könlüm, arzular
Dəmağımi təlx eylədi ayrılıq
O şirin dilini könlüm arzular.

Bir nərgisə bənzəməz o çeşmü cadu
Sünbül nədür ona oxşiyə geysu
Ətrinin ğəsb edüb müşki siyəhru
O siyəh telini könlüm arzular.

Aşiqi sadiqə ahü zar gərək
Rəqiblərin evi tarmar gərək



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bu Katibə xərabatı yar gərək
Fitnəni feylini könlüm arzular.

## MÜNDƏRİCAT

**Mirzə Məhəmməd Katib** ........ **3**

**XIX əsrin şairlərindən Mirzə Məhəmməd Katib** ........ **5**

**Unudulmuş yarpaqlar. Mirzə Fətəli Səbuhi və Mirzə Məhəmməd Katib** ........ **6**

**Şerlər** ........ **11**



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Created by Neevia Personal Converter trial version http://www.neevia.com